# Rəhbər yerində olanda



**... Ərazini gəzərkən Vidadi müəllimi rayonun rəhbər işçiləri, ziyalılar, veteran və gənclərlə yaşıllaşdırma işi apararkən - gördük. Mane olmamaq üçün onu uzaqdan seyr edərkən qeyri-ixtiyari bu gözəl, ziyalı, xeyirxah insan, səriştəli rəhbər haqqında zaman-zaman ayrı-ayrı insanlardan eşitdiyimiz alqış dolu söhbətləri xatırladıq...**

Kəlbəcər rayon icra hakimiyyətinin başçısı Vidadi MƏHƏRRƏMOV

Kəlbəcər Rayon Mədəniyyət və Turizm Şöbəsində bir neçə il əvvəl olmuşuq. O vaxt kollektivin işinə ürəkdən bağlılığı, vəzifəsinə məsuliyyət və yaradıcılıqla yanaşması bizdə belə bir inam təlqin etmişdi ki, əsil uğur hələ qabaqdadır. Bununla belə elə həmin dövrdə rayon mədəni-maarif müəssisələrinin fəaliyyətində başqaları üçün örnək olacaq müəyyən məqamlar da diqqətdən qaçmamışdı.

Zona müşavirəsi zamanı bunu nazir müavini Ədalət Vəliyev mədəniyyətimizin inkişafı və təbliği istiqamətində qarşıda duran vəzifələrə dair proqram xarakterli əhatəli çıxışında da qeyd etmişdi. Baxış zamanı Ədalət müəllim şöbənin özündə birləşdirdiyi müəssisələrin fəaliyyətindən razı qalmış, yaxşı işinə görə kollektivə təşəkkürünü bildirmiş, onun ətraf rayonlara nümunə olduğunu vurğulamışdı...

İndi aradan müəyyən vaxt keçib. Dəyişiklik kifayət qədərdir. Şöbə müdiri Saday Musayevlə müəssisələrə baş çəkir, fərəh doğuran bu yenilikləri nəzərdən keçirir, görüləcək tədbirlərdən danışırıq.

Bu haqda ətraflı söhbət açacağıq. Hələlik isə rayonun inkişafında, burada aparılan böyük quruculuq işlərində, əhalinin sosial müdafiəsinin möhkəmləndirilməsində xüsusi rolu olan Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı Vidadi Məhərrəmovla görüşümüz barədə.

Ərazini gəzərkən Vidadi müəllimi möhtərəm prezidentimizin çağırışına qoşularaq rayonun rəhbər işçiləri, ziyalılar, veteran və gənclərlə yaşıllaşdırma işi apararkən - ağac basdırarkən icra hakimiyyəti binasının qarşısında gördük. İşinə mane olmamaq üçün onu uzaqdan seyr etməyi qərara aldıq. Qeyri-ixtiyari bu gözəl ziyalı, xeyirxah insan, səriştəli rəhbər haqqında zaman-zaman ayrı-ayrı insanlardan eşitdiyimiz alqış dolu söhbətləri xatırladıq.



**Yaşıllaşdırmaya diqqət artır...**

İcra başçısı ilə onun xidməti otağında səmimi, işgüzar söhbətimiz oldu, təəssüratımız xoş ovqatla zənginləşdi: "Rəhbər bax belə olar: qətiyyətli, qayğıkeş, təvazökar, savadlı, mehriban, təşkilatçı... Doğrudan da danışılan qədər varmış..."

Məlumat üçün bildiririk ki, **Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəmov Vidadi Məhərrəm oğlu Goranboy rayonunun Xanqərvənd kəndində anadan olub. Ali məktəbi bitirdikdən sonra təyinatla Kəlbəcərə gedib, sıravi müəllimlikdən rayon rəhbəri səviyyəsinədək şərəfli həyat yolu keçib.**

2006-cı ilin sentyabrından Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısıdır. Rayonun digər sahələri kimi təhsilin, səhiyyə və mədəniyyətin inkişafına da xususi qayğı və diqqət yetirir.

Təhsildə olan neqativ hallar qısa vaxt ərzində aradan qaldırılmış, onun maddi-texniki bazası hiss ediləcək dərəcədə möhkəmləndirilmişdir. Son 5 ildə 20-dən artıq yeni məktəb binası tikilib istifadəyə verilmiş, bir çox təhsil müəssisələri əsaslı şəkildə təmir edilmişdir.



**Şöbə müdiri Saday Musayev**

Səhiyyənin inkişafı istiqamətində mühüm addımlar atılmış, rayon mərkəzi xəstəxanası üçün əlverişli iş şərait yaradılmış, onun inzibati binası yenidən qurulmuş, əlavə palata və kabinetlər tikilmiş, istilik, elektirik təchizatı, muasir tibb avadanlıqları ilə tam təmin olunmuşdur.

Mədəniyyət sahəsində bir sıra işlər görülmüş, Aşıq Şəmşir adına rayon mədəniyyət evinin tutumu 300 nəfər olan geniş, yaraşıqlı zalı əsaslı surətdə təmir edilmiş, avadanlıqlar alınıb quraşdırılmışdır. Kitabxana fondu yeni latın qrafikalı ədəbiyyat hesabına zənginləşdirmişdir.



**Bayram tədbiri**

**Rayon rəhbəri kimi o, mütamadi olaraq yerlərdə məcburi köçkünlərlə görüşlər keçirir, onları narahat edən problemləri şəxsən özü öyrənib həllinə kömək göstərir. Rayonda elə bir ailə yoxdur ki, onlarla görüşüb müvafiq yardım etməsin.**

Vidadi müəllim sözün əsl mənasında el ağsaqqalıdır. Xeyir-şərdən qalmır. Gənc ailələrə qayğı göstərir, onların toy məclislərinə kömək edir.

Yüzlərlə ailənin yas mərasiminin keçirilməsin-



MKS-in uşaq şöbəsində

də maddi və mənəvi yardımı olmuşdur. Hər birinin tutumu 120-150 nəfərlik 15 xeyir-şər mağarı (avadanlığı və qab-qacağı ilə birlikdə) hazırlanmış, əhalinin istifadəsinə verilmişdir.

Mədəniyyət və Turizm şöbəsinin bütün mədəni kütləvi tədbirlərində yaxından iştirak edir, onları həvəsləndirir, yaxşı işi yüksək qiymətləndirir.

Fəaliyyəti yüksək dəyərləndirilənlərdən biri də təbii ki, təcrübəli mədəniyyət xadimi Saday Musayevdir.

**Musayev Saday Cəfər oğlu ali təhsillidir. İxtisasca pedaqoq, Azərbaycan dili və ədəbiyyatı müəllimidir. Müxtəlif məsul vəzifələrdə (məktəb direktoru, rayon icraiyyə komitəsinin sədr müavini, icra hakimiyyəti başçısının müavini) çalışıb. 1993-cü ilin avqust ayından Kəlbəcər Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiridir.**

Saday müəllimlə söhbət zamanı öyrəndik ki, işğaldan əvvəl rayonun 103 klub müəssisəsi, 119 kitabxanası, 1 muzeyi və incəsənət məktəbi olub. Məlum hadisələrdən sonra əksər mədəni-maarif müəssisələrinin fəaliyyəti dondurulub, işçilərinə orta aylıq əmək haqqı verilib. Fəaliyyəti bərpa edilən Aşıq Şəmşir adına rayon mədəniyyət evi, mərkəzi kitabxana sistemi, tarix-diyarşünaslıq muzeyi və uşaq incəsənət məktəbinə gəlincə, onlar Gəncə şəhəri Gülüstan qəsəbəsindəki Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına məxsus binada yerləşdirilib.

Bina qəza vəziyyətində olduğundan tələbata cavab vermirdi. Odur ki, təmir işlərinin aparılması, müəssisələrin inventar və avadanlıqlarla təminatı istiqamətində lazımi tədbirlər görülüb.

Bununla yanaşı müəssisələrin fəaliyyətinin canlandırılması, istedadların aşkara çıxarılması, kitabxana və muzeyin yeni ədəbiyyat və eksponatlarla zənginləşdirilməsi sahəsində də ciddi addımlar atılıb. Əhaliyə mədəni xidmətin səviyyəsi yüksəldilib, "N" saylı hərbi hissədə rəngarəng konsert proqramı təşkil olunub.

- Rayon və respublika əhəmiyyətli tədbirlərdə müəssisələrimiz yaxından iştirak edirlər, - deyə Saday Musayev söhbətini davam etdirir. - İncəsənət məktəbinin özfəaliyyət kollektivi, "İstisu" xalq çalğı alətləri ansamblı və qabaqcıl müəllimlərimiz Natiq Ələkbərov, Bahadur Sadıqov, İlqar Əliyev, Sadıq Sadıqov, Baloğlan Məmmədov, Asif Quliyev, Oqtay Musayev və başqaları bu nəcib işdə xüsusi fəallıqları ilə fərqlənirlər.

MKS-in işinə gəlincə, özünüz də şahid oldunuz ki, nə qədər zəhmət çəkilib. Kitabxana artıq 36000 nüsxəlik fonda, yaraşıqlı otaqlara, müasir avadanlıqlara və fəal oxuculara malikdir.

1993-cü ilin mayından Bakı şəhərində fəaliyyətini davam etdirən muzeyimizin ilk eksponatı Kəlbəcərdən gətirilən 5 açar olmuşdur. Hazırda isə eksponatların sayı 3550-yə bərabərdir...

Kəlbəcər Rayon Mədəniyyət və Turizm Şöbəsinin, şöbənin özündə birləşdirdiyi müəssisələrin fəaliyyətindən bəhs edən yazılara növbəti saylarımızda geniş yer ayıracağımızı nəzərə alaraq söhbətimizi burada yekunlaşdırırıq. Düşünürük ki, gördüklərimizi, eşitdiklərimizi, fərəhdolu səfər təəssüratımızı bir jurnal məqaləsinə sığışdırmağımız düzgün olmazdı. Axı muzey, MKS və incəsənət məktəbi haqqında daha müfəssəl deyəcəklərimiz var...

**● Y.HİDAYƏTOĞLU**